# Tərtər: Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə yeni fərdi yaşayış evləri



**Bu günlərdə Tərtər rayonunda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən inşa edilmiş 4 fərdi yaşayış evinin açarları sahiblərinə təqdim edilmişdir.**

Poladlı kəndində II qrup Qarabağ müharibəsi əlili Azad Abbasov üçün tikilmiş evdə keçirilən tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Təminat Xidmətinin rəis müavini Sərdar Xıdırov, rayonun aidiyyəti idarə, müəssisə və təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Yeni evlərin açılış mərasimində Mamırlı kənd İƏD üzrə nümayəndə Şikar Əliyev çıxış edərək nümayəndəlik haqqında ətraflı məlumat vermişdir. Sonra kənd ağsaqqalı Asif Abbasov, ikinci qrup Qarabağ müharibəsi əlili Azad Abbasov, Mamırlı kənd tam orta məktəbin direktoru Məzahir Cəfərov müharibə veteranlarına, əlil və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildirmişlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Təminat Xidmətinin rəis müavini Sərdar Xıdırov Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasət kursu haqqında danışaraq qeyd etmişdir ki, ölkədə hər bir vətəndaşın rifahının yaxşılaşmasına, eyni zamanda sosial cəhətdən həssas təbəqələrdən olan insanların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

Dövlət başçısının 2014-cü il 20 iyun tarixli sərəncamına əsasən, respublikamızın bölgələrində fərdi və çoxmənzilli yaşayış evləri inşa olunaraq Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilir. Qeyd edək ki, ötən il Tərtər rayonunda 54 mənzilli yaşayış binası ilə yanaşı, 10 fərdi ev tikilərək Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verilmişdir. Hazırda isə rayonda daha 4 ədəd fərdi yaşayış evi bu qəbildən olan insanları öz arzusuna qovuşdurur.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov yeni mənzilə köçən Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə ürək sözlərini bildirərək, onlara yeni mənzillərində xoş günlər arzulamışdır. Rayon rəhbəri vurğulamışdır ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş və sağlamlığını itirmiş insanların problemləri hər zaman dövlətin diqqət mərkəzində olmuşdur. Ölkə rəhbəri cənab İlham Əliyevin bu kateqoriyadan olan insanlara göstərdiyi qayğının bariz nümunəsi olaraq, Tərtərdə Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin maddi-məişət vəziyyətini yaxşılaşdırmaq məqsədilə 1 ədəd 6 mərtəbəli 54 mənzilli, 2 ədəd 2 mərtəbəli 16 mənzilli, 1 ədəd 2 mərtəbəli 24 mənzilli binalar və 21 fərdi yaşayış evləri tikilərək şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təhvil verilmişdir. Hazırda 9 fərdi evin inşası nəzərdə tutulmuşdur ki, bunlardan 4-ü sahiblərini gözləyir, digər 5 evdə isə işlər davam etdirilir.



Tədbirdə iştirak edən şəhid ailələrinin üzvləri Hüseynova Rəna Yusif qızına və Əhmədova Tamella Həmid qızına, Qarabağ müharibəsi əlilləri Əliyev Natiq Nəsir oğluna və Abbasov Azad Abbas oğluna yeni mənzillərin sənədləri və açarları təqdim edildikdən sonra evlərə baxış keçirilmişdir.

**Maarif RZAYEV,**
**"Respublika".**